# ŞAMAXI: Yurda bağlı insanların yaratdığı yeni növraq



***❒ Lap çoxdan, neçə həftə əvvəl şamaxılı dostlarla söhbət zamanı demişdim ki, bu rayonla bağlı yazılarımdan biri mütləq torpağa həsr olunacaq. Çünki Şamaxının torpağı, sözün həqiqi mənasında, hər cür vəsfə, tərifə layiqdir. Dağ kimi dağı, aran kimi aranı olan, Əfzələddin Xaqani, İmadəddin Nəsimi, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir kimi söz-sənət zirvələri yetişdirən bu diyarın keçdiyi yol milli tariximizin ən dəyərli səhifələrinə çevrilib. İş elə gətirdi ki, həmin yazını payıza saxlamalı olduq. Qoy olsun. Onsuz da, Şamaxının payızının özgə bir növrağı olur. Bir də ki, payıza daha sanılı günlər qalıb.***

Amma, bu yazını Şamaxının torpağı barədə deyil, torpağı qoruyan, xalqa üzağlığı gətirən oğulları haqqında sətirlərlə başlamaq istədim. Çünki ermənilərin təxribatı nəticəsində cəbhənin Tərtər rayonu istiqamətində -- qoşunların təmas xəttində baş vermiş son hərbi əməliyyatlarda bu rayondan olan 3 əsgərin --Kaçayev Samir Ziyəddin oğlu, Zəkərəyev Nazim Nadir oğlu və Səmədov Elşən Səlim oğlunun şəhid olmağı hər bir şamaxılını sarsıtmışdı. Şəhidlərin dəfni günü gördüyümüz həqiqətlər sübut edirdi ki, Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində atılan istənilən addımı dəstəkləyir, qəhrəman əsgərlərimizlə fəxr edir. Rayonun iftixar mənbəyinə çevrilən bu gənclərin son mənzilə yola salınması mərasimlərində millət vəkillərindən Yaqub Mahmudov, Məlahət İbrahim qızı, Aqil Abbas, Sevinc Hüseynova, Müdafiə Nazirliyinin, rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndələri və minlərlə şamaxılının iştirakı sübut edirdi ki, bu üç gənc müasir Şamaxının ən hörmətli simalarına çevriliblər.

Əlbəttə, həmin qürurverici döyüşlər də, şəhidlərin dəfni də aprel ayında olmuşdu. İyul ayının 23-də isə rayonda şamaxılı şəhidlərin medallarının valideynlərinə təqdim edilməsi mərasimi keçirildi. Müdafiə Nazirliyi və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Milli Ordumuz milli qürurumuzdur" devizi altında təşkil olunan vətənpərvərlik tədbirində Müdafiə Nazirliyinin rəsmiləri, rayon rəhbərliyi, veteranlar, şəhid ailələri, ictimaiyyət nümayəndələri iştirak edirdilər. Rayon icra hakimiyyətinin başçısı Asif Ağayev Azərbaycan Silahlı Qüvvələrinin yaranması tarixindən, ulu öndər Heydər Əliyevin ordu quruculuğundakı müstəsna xidmətlərindən və həmin siyasətin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışdı və qeyd etdi ki, aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, xalqımızın həmrəyliyini, ölkə rəhbərliyinin qətiyyətini bir daha göstərdi. Qeyd olundu ki, Azərbaycan əsgəri aprel döyüşləri zamanı qazandığı uğur və qələbələrlə xalqımıza zəfər sevinci yaşadıb. Həmin döyüşlərdə şəhid olmuş şamaxılı gənclər – rayonun Çuxuryurd kəndindən olan manqa komandiri Kaçayev Samir Ziyəddin oğlu "İgidliyə görə" medalı ilə, Göylər kəndindən olan əsgər Səmədov Elşən Səlim oğlu və Şamaxı şəhərindən olan Zəkərəyev Nazim Nadir oğlu "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunublar. Medallar tədbir iştirakçılarının alqışları altında şəhidlərin valideynlərinə təqdim edildi. Kaş ki, həmin valideynlərin ağır itkidən yaranmış kədərini üstələyən qürurunu hörmətli oxucular da görmüş olaydılar.

Yəni yuxarıda qeyd etdiyimiz kimi, Şamaxı torpağnın istənilən övladı bu yurda başucalığı gətirmək iqtidarındadır. "Kimin hansı sahədə çalışmasından, xidmət göstərməsindən asılı olmayaraq istənilən şamaxılı öz fəaliyyətində fərqlənə bilir" – deyə söhbətə başlayan rayon icra hakimiyyətinin başçısı Asif Ağayev öz fikirlərini çoxsaylı faktlarla əsaslandırdı: "Söhbət ondan gedir ki, burada hamı öz üzərinə düşən vəzifənin məsuliyyətini başa düşür. Məhz həmin məsuliyyətin nəticəsidir ki, dövlətin bizim qarşımıza qoyduğu vəzifələr, həmişə olduğu kimi, bu il də uğurla icra edilir. Məsələn, bu ilin geridə qalan aylarında rayonda təxminən 60 milyon manat dəyərində ümumi məhsul istehsal edilib. Əsas kapitala yönəldilən investisiyaların həcmi 2,1 milyon , tikinti-quraşdırma işlərinin həcmi 2,1 milyon manat təşkil edib. Pərakəndə əmtəə dövriyyəsi 100,9 milyon, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 24 milyon manat olub. Əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması məqsədilə fevral ayının 1-dən başlayaraq rayon icra hakimiyyəti və digər dövlət qurumları tərəfindən yeni açılmış iş yerlərinə 409 nəfər qəbul edilib. İlin əvvəlindən bəri minə yaxın, 2003-cü ildən sonra isə 13 mindən çox yeni iş yeri yaradılıb ki, bunun da 10 min 420-si daimi iş yeridir.





Təbii ki, rayon iqtisadiyyatında əsas yerlərdən birini kənd təsərrüfatı sahəsi tutur. Elə ona görə də təkcə bu ilin əvvəlindən rayonda 22 milyon 600 min manatlıq məhsul istehsal edilib ki, bunun da 15,8 mlyon manatı heyvandarlıq, 6,8 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür. Bu ilin məhsulu üçün ötən il əkilmiş 23 min 163 hektar sahənin 21 min 165 hektarı strateji məhsul olan dənlilərin payına düşür. Bu isə dövlətin qarşımıza qoyduğu bir neçə vəzifənin yerinə yetirilməsini təmin edir. 23 min 163 hektar sahənin əkilməsi, becərilməsi, məhsulunun toplanması işsizliyin aradan qaldırılması, ərzaq bolluğunun yaradılması və mövcud torpaq ehtiyatlarından səmərəli istifadə olunması kimi mühüm dövlət tapşırıqlarının icrasını təmin edir".

Asif müəllim yada saldı ki, ötən əsrin 70-80-ci illərində Şamaxı Azərbaycanın ən böyük üzümçülük rayonlarından birinə çevrilmişdi. Hazırda bu sahənin inkişafına xüsusi diqqət göstərilir. Bu baxımdan dövlətimizin başçısının tapşırığı ilə hazırlanan və qəbul edilən "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın bu sahənin yenidən dirçəldilməsində mühüm rolu olub. Hazırda rayonda üzümçülük yeni inkişaf dövrünü yaşayır. Fermerlər tərəfindən ötən müddət ərzində yeni üzümlüklər salınaraq bu gəlirli sahə 1632 hektara çatdırılıb. Bundan əlavə Meysəri kəndinin ərazisində yerləşən "Şirvan şərabları" müəssisəsi tərəfindən bu il 51 hektar yeni üzüm , 20 hektar isə yeni meyvə bağı salınıb.

Özümün də iştirak etdiyimə görə yadımdadır, iyunun əvvəllərində rayonda kənd təsərrüfatı məhsulları istehsalçılarının, fermerlərin və sahibkarların iştirakı ilə müşavirə keçirilmişdi. Müşavirədə Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə "Kənd təsərrüfatı məhsullarının istehsalının artırılması" ilə əlaqədar yaradılmış işçi qrupun nümayəndələri iştirak edirdilər. Qonaqlar bu sahədəki mövcud problemlərlə bağlı tədbir iştirakçılarının suallarını cavablandırdılar. Cəmi on gündən sonra isə rayonun həmin kateqoriyadan olan numayəndələri ilə milli iqtisadiyyatın və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin işlənilməsi çərçivəsində görüş keçirildi və tədbirdə iştirak edən işçi qrupunun nümayəndələri də verilən sualları cavablandırdılar. Yəni ölkənin hər yerində olduğu kimi, Şamaxıda da kənd təsərrüfartının inkişaf etdirilməsi, sözün həqiqi mənasında, daim diqqət mərkəzindədir.

Amma, Şamaxıda görülən tədbirlər kənd təsərrüfatının və ya hansısa konkret sahənin inkişaf etdirilməsi ilə yekunlaşmır. Burada geniş tikinti-quruculuq işləri də aparılır. Rayon rəhbərinin də qeyd etdiyi kimi, ölkəmizin tarixi şəhərlərindən olan Şamaxının abadlaşdırılması və yenidən qurulması, sosial problemlərin həll edilməsi uğurla davam etdirilir. Şəhərin mərkəzindəki 20 Yanvar parkının əsaslı təmir etdirilməsi üçün layihə sənədləri hazırlanıb. Nəriman Nərimanov küçəsində yenidənqurma və abadlıq işlərinə artıq start verilib. Küçədə yeni layihəyə uyğun olaraq xüsusi materiallarla barıların üzlənməsi, küçə boyu yeni yaşıllıqların salınması, piyadalar üçün səkilərin uzlənməsi, müəyyən yerlərdə xüsusi işlənmiş layihəyə uyğun yeni barıların tikintisi və digər işlər görülür. Rayonun Şərədil kəndində 80 şagird yerlik tam orta məktəb binasının inşası başa çatdırılaraq məktəblilərin istifadəsinə verilib. Mədrəsə qəsəbəsində 380 şagird yerlik tam orta məktəb binasının tikintisinin son tamamlama işləri aparılır, 5 saylı 100 yerlik uşaq bağçası-körpələr evinin, 36 mənzilli şəhid və əlillər üçün nəzərdə tutulmuş binanın inşası davam etdirilir. Şəhərin Məmməd Əmin Rəsulzadə küçəsində yerləşən – Qarabağ uğrunda gedən döyüşlərdə əlillər və şəhid ailələri üçün tikilən binaların fasad hissələrinin və dam örtüklərinin təmiri işləri aparılır.

Bundan başqa, 220 şagird yerlik Meysəri kənd orta məktəbinin tikintisi üçün layihə sənədləri hazırlanır. Seyid Əzim Şirvani küçəsində inşası nəzərdə tutulan yeni 100 yerlik uşaq bağçası-körpələr evinin layihə sənədləri hazırlanıb. Kərkənc kənd məktəbində idman zalının tikintisi başa çatmaq üzrədir. Rayonun Muğanlı kəndinin ərazisində inşa edilən mağistral avtomobil yolunun sağ və sol hissəsində inşa edilən istinad divarlarındakı xüsusi bəzək elementlərində əsaslı təmir işləri aparılıb.

Rayonun 55 kilometrlik Şamaxı - Göylər- Çöl Padar avtomobil yolunun tikintisi davam etdirilir. Artıq yolun 48 kilometrlik məsafəsi təmir edilərək asfalt-beton örtüyü vurulub. Bundan əlavə, Pirquludan Dəmirçi kəndinə gedən avtomobil yolunda təmir işləri aparılır. Kəndin qarşısından keçən Pirsaat çayının üzərindən körpü tikilməsi məqsədilə layihə sənədləri hazırlanır. Hazırda hər iki yolda təmir işləri davam etdirilir. Turizmin inkişafı məqsədi ilə rayon icra hakimiyyətinin sifarişi ilə rayonun Dəmirçi kəndindən İsmayıllı rayonunun Lahıc kəndinə 22 kilometrlik avtomobil yolunun tikintisinə başlanıb. Hazırda yolun tikintisi sürətlə davam etdirilir və bu il layihənin başa çatdırılması nəzərdə tutulur.





Həmsöhbətim qeyd etdi ki, Şamaxı rayonu istər tarixi keçmişi, istərsə də coğrafi şəraiti baxımından turizm üçün olduqca əlverişli bir zonadır. Məhz buna görə də rayona gələn turistlərin və istirahət mərkəzlərinin sayı ilbəil artır. Hazırda Pirqulu zonasında müasir standartlara cavab verəcək yeni turizm obyektlərinin tikintisi davam etdirilir.

Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin artırılması da daim diqqət mərkəzindədir. Məsələn, rayon ərazisində yeni qazlaşma, təmir – bərpa işləri davam etdirilir. Bu ilin geridə qalan aylarında 61 ədəd sayğac yenisi ilə əvəz edilib, 151 ədəd sayğacın yeri dəyişdirilib, aşkar olunmuş 14 min 216 qaz sızmasının qarşısı alınıb. Rayonda yeni "İtron" tipli smartkart qaz sayğaclarının quraşdırılmasına da başlanılıb. Şamaxı şəhərinin qaz təchizatının yaxşılaşdırılması məqsədilə şəhərin 02 a, 01 b və 10 a saylı yaşayış massivlərinin layihə-smeta sənədləri hazırlanıb və yaxın vaxtda həmin küçələrə təbii qaz xətlərinin çəkilişi nəzərdə tutulur.

"Azərişıq" və Şamaxı elektrik şəbəkəsinin balansında olan 10/04 kilovoltlluq 18 ədəd müxtəlif güjlü yeni transfarmator quraşdırılıb. Həmin transfarmatorlardan ayrılan 0,4 kv-luq hava xətləri SİP kabellə əvəz edilib. Rayonun Sabir qəsəbəsində yeni tipli 630 kva gücündə transformator quraşdırılıb. 715 ədəd əyilmiş dayaq düzəldilib, 1430 metr yeni SİP kabeli çəkilib. Bundan əlavə, 31 ədəd transformator məntəqəsi cari təmir olunub.

Rayon əhalisinə göstərilən səhiyyə xidmətini yaxşılaşdırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilir. Rayon mərkəzi xəstəxanasının həkimlərindən ibarət səyyar həkim briqadaları yaradılaraq il ərzində həftədə bir dəfə olmaqla, rayonun qəsəbə və kəndlərinə göndərilir. Ölkə başçısının tapşırığına uyğun olaraq fevral-may ayları ərzində rayon əhalisinin 70 min 824 nəfəri kütləvi dispanser müayinəsinə cəlb edilib. Bu müddət ərzində aşkara çıxarılan xəstələr təyinatı üzrə ambulator və ya stasionar müalicəyə cəlb olunub.

Asif Ağayev xatırlatdı ki, son zamanlar xalqımızın minilliklər boyu yaratdığı maddi mədəniyyət nümunələrinin, qeyri - maddi mədəni irsinin, folklorumuzun təbliği və təşviqi sahəsində mühüm işlər görülür. Bu çərçivədə "Miras" İctimai Birliyinin Ağsu rayonun Gəgəli kəndində keçirdiyi II Beynəlxalq tərəkəmə çərşənbəsi, folklor festivalı mühüm əhəmiyyət kəsb edir. Həmin festivalda Şamaxı Mədəniyyət Mərkəzinin "Şirvan" folklor kollektivi uğurla çıxış edib və diplomla mükafatlandırılıb.

Rayondan kənarda qazanılan uğurlar barədə danışarkən qeyd edək ki, Novruz bayramı ərəfəsində İçərişəhərdə və Dənizkənarı Milli Parkda xalqımızın qeyri-maddi mədəni irsinin ən parlaq nümunəsi olan bayrama həsr olunmuş şənliklərdə qədim Şamaxını təmsil edən xalq sənətkarları, kulinarlar, mətbəx ustaları, fermerlər, "Şirvan" folklor ansamblı layiqli şəkildə çıxış ediblər.

Həmsöhbətim sonda çox maraqlı fikir söylədi: "Təbii ki, rayonun bütün uğurlarının təməlində iki mühüm amil dayanır. Birinci amil zamanın tələbləri səviyyəsində qurulmuş idarəetmədirsə, ikinci amil insanların ümumi inkişafa, tərəqqiyə olan münasibəti, götürülmüş siyasi kursa olan sədaqətidir. Məhz ona görə də biz müntəzəm olaraq əhalinin müxtəlif təbəqələri, eləcə də kənd və qəsəbə sakinləri ilə görüşürük. Həmin görüşlər zamanı qaldırılmış problemlərin əksər hissəsinin yerində həll edilməsi əhali tərəfindən razılıqla qarşılanır. Bu ilin əvvəlindən bəri rayonun 24 kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyində rayon icra hakimiyyətinin başçısı ilə keçirilmiş görüş-qəbullarda 2050 nəfərdən artıq əhali iştirak edib. Həmin görüşlərdən sonra əhalinin müraciətləri nəzərə alınaraq müvafiq işlər görülür".

... Telefonumda tamamilə qeyri-adi bir fotoşəkil var. Həmkarlarımın əksəriyyətinə göstərmişəm. Günəşin qürub etdiyi anlarda – Pirquludan İsmayıllı tərəfə baxanda hamımızı heyran edən bir təbiət mənzərəsi yaranmışdı. Həmin lövhəni dərhal fotolentə aldım. Mən bir qələm sahibi kimi həmin istiqamətdə şəkil çəkdim: Qurub -yaradan insanlar isə oradan qonşu rayonun Lahıc qəsəbəsinə rahat avtomobil yolu çəkirlər. Özü də 22 kilometr uzunluğunda. Amma, yazının sonunda başqa bir şəkil çəkən adam da yadıma düşdü. Rayon icra hakimiyyətində öyrənmişdim ki, Meksikanın Azərbaycandakı səfirliyinin təşəbbüsü ilə Şamaxı şəhərində meksikalı rəssam Marqarita Moralesin fərdi yaradıcılıq sərgisi təşkil edilib. Sərgi Şamaxı sakinlərinin və rayona gələn turistlərin böyük marağına səbəb olub. Kaş, meksikalı rəssam xanım mənim Pirquluda görüb lentə aldığım lövhənin də şahidi olaydı. İnanıram ki, onun çəkəcəyi lövhənin tayı-bərabəri olmazdı.

...Bəlkə də çəkib, xəbərimiz yoxdur.



***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***